*Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 may 2018-ci il № 41 (2257) Qiyməti 25 qəpik


# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul təşkil olunub

## Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib

*Mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul təşkil olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Azərbaycanın Dövlət himni səsləndirilib. Dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.*



- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm də ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili - ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında - XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında ulu öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

*Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram - Respublika Günü münasibəti ilə ziyarət edib. AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Düz 100 il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprelində bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü - Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Sərəncam imzalaması, 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etməsi onun milli dövlətçilik tariximizə diqqət və qayğısının göstəricisidir.

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul təşkil olunub

**(Əvvəli 1-ci səhifədə)**

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə - Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə, onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı, əlbəttə ki, bu tarixi yaxşı bilir. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsir etmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibəti ilə rəsmi qəbul təşkil olunub

(Əvvəli 2-ci səhifədə)

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata - Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüququn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.




Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir - Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni, əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir. Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Yeni, bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox Olimpiya mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı - nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft-qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi. Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda Cənub Qaz Dəhlizinin icrası ilə bağlı böyük işlər görülür və sabah Cənub Qaz Dəhlizinin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək. Bu istiqamətdə böyük işlər görüldü. Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da kifayət qədər neft ehtiyatları "Azəri-Çıraq-Günəşli"də qalacaq.

O ki qaldı bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız var.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. O şəraitdə ki, bu yanaşmaya indi dünyada o qədər də isti münasibət göstərilmir. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna nail ola bilmişik. Sovet dövründə əgər bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik. Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya Oyunlarında yüzlərlə medal qazanmışlar. Son Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi bu Oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir. Bu, nəyin nəticəsidir? Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gələnə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Xalq Cümhuriyyəti - yaşayan, yaşadılacaq tariximiz

## Gəncədə "Xalq Cümhuriyyətinin varisləriyik" devizi altında silsilə tədbirlər həyata keçirilib

*Həzin-həzin əsən meh ağacların yarpaqlarına, sökülən dan yeri düşüncələrimə sığal çəkməkdədi. Göy üzü üzə gülür. Təntənəni, coşqunu, görəcəklərimizin işartılarını görüncə mənə elə gəlir ki, 100 il əvvəl mayın 28-də də belə ayam olub - sökülən dan yeri, açılan səhər müasirləşməyin, türkləşməyin, islamlaşmağın məfkurə vəhdətindən yaranan dövlətin qurucularını, quruculuğun qazilərini sərin-sərin əsən mehiylə, çiçəklərin ləçəyində çırpınan, uçunan şehiylə, üçrəngli bayrağımızın köksü altında təbəssüm haləsinə dönən qövsi-qüzehiylə salamlayıb. Toplaşanlar 100 yaşlı salama əleyküm-salam deyir; ürəyi ilə dinləyənlər salamı da eşidir, əleyküm-salamı da...*





Tarixin iki aprel ayı heç zaman unudulmayacaq: 28 aprel 1920-ci il, 1-5 aprel 2016-cı il. Biri Azərbaycan dövlətçiliyinə sui-qəsd kimi, biri Azərbaycan əsgərinin döyüş əzminin, vətənsevərliyinin yazdığı tarix kimi. Biri sızıltıdı, biri qürur. Biri Gülüstan müqaviləsinin davamı oldu, digəri Horadiz əməliyyatının. Biri imperiya siyasətinin möhürü oldu, digəri vətənsevərliyin, dövlətə, dövlətçiliyə sədaqətin. Biri ilhaq rəngliydi, digəri qələbə, zəfər. Biri siyasət çovğunu kimi yaşadılacaq, digəri azərbaycançılığın göyqurşağı kimi. Birinin sızıltılarını 1991-ci ilin 18 oktyabrı yumşaltdı, digəri daha möhtəşəm zəfərin - Böyük Qələbənin başlanğıcı kimi yaşadılmaqdadı...

1918-ci ilin 28 mayında yüksələn bayraq 71 il ideyalarda, əqidələrdə, amallarda, ürəklərdə dalğalandı...

98 il əvvəl imperiya bu bayrağın varlığından çəkindi, bolşevizmin yedəyində Azərbaycan Xalq Cümhuriyyətini ilhaq etdi. Bu, 98 il çəkən mənəvi sıxıntılar, Azərbaycan üçün yaşayanların ürəyinə yük oldu. 27 il əvvəlin 18 oktyabrı bu sıxıntıların son nəfəsi oldu; Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi; 18 oktyabr 28 mayın mənəvi, mənəvi-siyasi sonluğu kimi tarixləşdi. Tarix bu bayrağı yenidən gördü - Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını tanıdı. Gördü ki, bu bayraq məfkurə bayrağıdı, əqidə bayrağıdı - müasirləşmə, türkləşmə, islamlaşma bayrağıdı.

Dünya onu da gördü ki, xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan böyük tarixi şəxsiyyət Heydər Əliyev də dövlət müstəqilliyi bərpa edilən Azərbaycanı Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi təqdir etdi. Dünya bu qərarı - Azərbaycanın dövlətçilik tarixinə ehtiramı ötən əsrin əvvəllərində tarixin dövlətçiliyimizə sui-qəsdinə dahilik cavabı bildi...

Dünya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçiliyimizə ehtiramının, sevgisinin, Ulu Öndərin ideyalarına sədaqətin təsdiqi olan sərəncam imzaladı - 2018-ci il Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini də gördü...

...Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə, birlik və birləşmələrdə, Əlahiddə Ümumqoşun Orduda silsilə tədbirlər keçirilir. Mahiyyəti dövlətçiliyə sədaqət olan bu tədbirlərin hər birinə bu günümüzdən 100 il əvvələ düşən mənəvi işıq deyərdim; tarixdə bu işığı sındırmaq qüdrəti yoxdu...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin əməkdaşı polkovnik Abdulla Qurbaninin layihəsi, ssenarisi və rejissorluğu ilə keçirilən "Xalq Cümhuriyyətinin varisləriyik" teatrlaşdırılmış, kinolaşdırılmış kütləvi vətənpərvərlik tədbirində Gəncə şəhər İcra Hakimiyyətinin rəhbərliyi, Azərbaycan və Türkiyə Respublikaları Müdafiə nazirliklərinin, Gəncədəki diplomatik korpusların rəsmiləri ulu öndər Heydər Əliyevin abidəsini ehtiramla yad edir, abidəsi önünə tər güllər düzürlər. "Azərbaycan Xalq Cümhuriyyəti Muzeyi"nin zəngin eksponatları 100 il əvvəlin təəssüratları olur.

Türkiyə Milli Müdafiə nazirinin müavini, əslən Samux rayonundan olan Qaçaq Məmmədqasımın nəvəsi Şuay Alpay babasından yadigar qalmış fotonun əslini Muzeyə hədiyyə edir...

"Xalq Cümhuriyyətinin varisləriyik" kütləvi vətənpərvərlik tədbiri bir azdan Heydər Əliyev park-kompleksinin amfiteatrında başlayacaq.

Bir yerdə qərar tuta bilməyən iki yeniyetmədən eşitdiyim misralar yerişimi yavaşıdır:

*Əmir əmr etsə, əmr etsə, əmr etsə,*
*Qovarıq düşməni hər yerə getsə...*

Cümhuriyyət illərinin şərqilərindəndir. O qədər istəklərlə, o qədər həvəslə deyirlər ki, (deməli, şərqinin məzmununu yaşayırlar!) hər birini Müsəlman Korpusunun əsgəri bilirsən; 100 il əvvəlin əsgərinin oxuduğu şərqi bu günün əsgərinə döyüş ruhunun şərqisi kimi səslənir...

Mehin yarpaqların titrəyişinə qarışan pıçıltısını könül xoşluğu bilənlərin sırasındayam. Baxışları əsgərlərin nizami düzülüşündən üzülməyən ağsaqqalla kəlmələşirəm: "Atam Müsəlman Korpusunun əsgəri olub, mən Böyük Vətən müharibəsinin iştirakçısı olmuşam, oğullarım Qarabağda döyüşüb. Nəvələrim ordumuzda xidmət edir. Atamın yolu Cümhuriyyətin yoluydu, bizim yolumuz atamın. Hamımız bu bayrağın əsgəriyik. Bu günün yeniyetmələri də bayrağımızın əsgəri olacaq!". Qürurum ağsaqqalın qüruruna sarılır...

Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı Gəncə şəhərində keçirilən silsilə tədbirlər Heydər Əliyev adına Park-kompleksin amfiteatrında davam etdirilir. Tədbirin yekununu da bu işığın gurluğunda izləyirəm; bu işıq hamını - qocanı da, cavanı da, hərbçini də, mülkini də, iştirakçıları da, qonaqları da 100 il əvvəlin ovqatıyla yaşatmaqdadı; hər ürək bir Gəncədi. Əsən yel də, açan gül də "Gəncə!" deyir elə bil, ruh məqamı, ruh anı da "Gəncə!" deyir, tavar sazda "Ruhani" də "Gəncə!" deyir. Ruh andı - ruhlaşan can "Gəncə!" deyir, başdan-başa Azərbaycan "Gəncə!" deyir! Bu qüdrət Azərbaycan Xalq Cümhuriyyətinin qüdrətidi. Bu qüdrət duyulan qüdrətdi, rejissuranın şərtiliyində yaşadılan reallığın qüdrətidi...

Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı dövrdə siyasi vəziyyətdən danışan aparıcıların (Abdulla Qurbani, Pərvanə Qurbanova) təhkiyyəsi misralaşanda "Zəfər tağı" sevincin, səvincin yaratdığı coşqunun möhtəşəmliyinə darlıq edir:

*Bu il heyrət ilidi,*
*Yerə-göyə sığmayan*
*bir məhəbbət ilidi...*
*Qədəminə gül səpin,*
*Cümhuriyyət ilidi!..*

Obrazların - tarixi şəxsiyyətlərin monoloqları tədbirin mahiyyətinin açılmasına, mahiyyətin tarixləşməsinə, tarixin yaşadılmasına xidmət edir. Baxdıqca, dinlədikcə özünü 100 ilin o üzündə yaşanılmışların iştirakçısı bilirsən...

887 yaşlı Nizami Gəncəvinin, 224 yaşlı Mirzə Şəfi Vazehin, 929 yaşlı Məhsəti Gəncəvinin, 143 yaşlı Fətəli xan Xoyskinin, 126 yaşlı Əhməd Cavadın, 139 yaşlı Məhəmməd Hadinin, Cümhuriyyət ordusunun döyüş bayrağıyla, süvarilərin və piyadaların müşayiəti ilə gələn 163 yaşlı Səməd bəy Mehmandarovun, 163 yaşlı Əliağa Şıxlinskinin, 129 yaşlı Nuru paşanın..., ruhlarından süzülən-üzülən kəlamlarında Azərbaycan var. Qələbəliyə baxırlar, gözdolusu əsgərlərə baxırlar. Hamısının baxışından Azərbaycan əsgərinə xeyir-dua oxunur: "Yasəmən ətirli, nərgiz-bənövşə ətirli səhər sənin səhərin olsun! Şimşək kimi çaxıb gedin, sellər kimi axıb gedin, yağış kimi yola-izə, çölədüzə yağıb gedin! Zəfər sənin zəfərin olsun!"...

Məhəmməd Hadi hamısının adından deyir ki, "...qanla yazılmış zəfəri verməriz əldən!..". Bu misranı Cümhuriyyətə sevgi andı bilirəm. Məfkurə yaşadı, zəfər yaşadı. O məfkurənin, o zəfərin 100 illiyidi...

Mükəmməl ssenari zaman sərhədini incəliklə aradan qaldırır; tədbir 100 ili bir mahiyyətin doğmalığında o qədər həssaslıqla, o qədər incəliklə yaşadır ki, aparıcının "Cümhuriyyət səndə, məndə yaşayacaq!" nidası ürək-ürək gəzişir, "Zəfər tağı"nın şərti nəhayətsizliyində kəlmə-kəlmə dalğalanır...

Zaman sərhədini aşıb 100 ilin o üzündə ilk dəfə dalğalanmış bayrağımıza sarılmaq keçir könlümdən. O bayrağı dalğalandıranın əlindən öpərdim, Gəncə çayının dalğalarının coşqunluğunu tamamlayan "Bismillah"ı 29 maya açılan səhərə azan səsi bilərdim. Əhməd Cavadın "Bismillah"ını Gülüstan müqaviləsinin gücünü-taqətini tükəndirən, sənədliyini itirmiş kağıza döndərən dövlətçilik təntənəsi bilərdim...



(Ardı 5-ci səhifədə)

# Azərbaycan Xalq Cümhuriyyəti - yaşayan, yaşadılacaq tariximiz

## Gəncədə "Xalq Cümhuriyyətinin varisləriyik" devizi altında silsilə tədbirlər həyata keçirilib

(Əvvəli 4-cü səhifədə)



Aparıcının təqdimatında Ərzurumun gədiyindən enib gələnləri görürük - Nuru paşanın komandanlığıyla Azərbaycana gələn mehmetçiklərdi...

Gəncədə xalqın coşqusunu görürük - Qafqaz İslam Ordusunu qarşılayırlar...

Gəncədə Qafqaz İslam Ordusunun tərkibinə qoşulanları görürük...

Qaraməryəmdə, Ağsuda, Şamaxıda, ...Qurd Qapısında gedən döyüşləri görürük...

Sentyabrın 15-di. Bakının küçələrində camaatın coşqusunu görürük - Cümhuriyyətin tarixlə mücadiləsinin görüntüləridi. O qədər munis görüntüləri ki, elə bil üstündən illər keçməyib. Nuru paşanı görürsən, mehmetçikləşirsən, Ələğa Şıxlinskini görürsən, elə bilirsən ki, Müsəlman Korpusunda xidmətdəsən, ...

"Zəfər tağı"nda sərin-sərin əsən meh düşüncələrimin tağlaşdırma cəfakeşidi...

Aparıcılar (Abdulla Qurbani, Pərvanə Qurbanova) Şərqdə ilk demokratik dövlət olan, müasirləşmə, türkləşmə, islamlaşma məfkurəsiylə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin dünyanın onlarla dövləti ilə diplomatik əlaqələr qurduğundan, ordu quruculuğundan, ordu quruculuğunun tərkib hissəsi olan hərbi təhsil sisteminin yaradılmasından, ordunun mərhələlərlə formalaşdırılması istiqamətində mühüm qərarlar qəbul edilməsindən, Müsəlman Korpusunun yaradılmasından, şəxsi heyətin döyüş hazırlığından,



müasir Azərbaycanın varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlətçilik atributlarını yaşatmasından, ... danışırlar.

- Cümhuriyyət ili həm də ordumuzun 100 illiyidi. Ulu öndər Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığı son illər daha da yüksəlib. Ali Baş Komandanın ordu quruculuğunu dövlət üçün prioritet elan etməsi bu prosesin daha dönməzliklə davam etdiriləcəyinin qarantıdır.

Belə bir əlamətdar tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük tarixi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunan dövlət tədbirində dediyi "Azərbaycan dövləti, Azərbaycan xalqı heç zaman imkan verməz ki, Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın" kəlamına istinadən əlamətdar bir tarixi də xatırladırlar:

- Aprel zəfəri Azərbaycan Ordusunun döyüş və mənəvi-psixoloji hazırlığını, xalqla ordunun birliyini, istər hərbçilərin, istərsə də mülki əhalinin dövlətə, dövlətçiliyə sədaqətini təsdiqlədi. Bu qələbə yaxın vaxtlarda qazanacağımız Böyük Qələbənin başlanğıcıdır. O döyüşlər, o zəfər təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Kəlmələr əsgərlərin baxışlarının qətiyyətinə hopur...

Bir məqam diqqətimi çəkir: 1918-ci ilin 28 mayı zəfərdi. Zəfər gününün 100 illiyi zəfər istəkli "Zəfər tağı"nda keçirilir. Səslənən fikirlər, fikirləri tamamlayan mizanlar zəfərə söykənib. Zəfər istəyənlərlə zəfəri qazanacaq əsgərlərin səssiz, sözsüz mükalimələşməsi zəfər üçündü; zəfər kəlməsinin alliterasiyasını Əhməd Cavadın "Bismillah"ında deyildiyi kimi, "dağlardan atılacaq zəfər toplarının" zəfər işığı bilirəm...

Səbahəddin Şabanov Gəncədə yaşayır, elmi işçidi. Bu möhtəşəm tədbiri könül xoşluğuyla izləyir. Gördüklərini gözlərindən könlünə köçürür:

- Türkiyənin istiqlal savaşında minlərlə azərbaycanlı iştirak etdi. Sarıqamış döyüşlərində yüzlərlə azərbaycanlı döyüşçü şəhid oldu. Azərbaycanın bolşevik-daşnak qüvvələrindən təmizlənməsində Nuru paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunun tarixi döyüşlərində babam Hüseyn əfəndi də bu ordunun mehmetçiyi olub. Qafqaz İslam Ordusu Azərbaycanı tərk edəndə Azərbaycan Ordusunda xidmət etmək üçün Türkiyəyə qayıtmayıb. Azərbaycan babama Vətən olub.

Möhtəşəm coşqu görürəm, Cümhuriyyətə sevgi görürəm, ürəyim dağa dönür. Bu sevgi Azərbaycana sevgidi, Azərbaycanımıza sevgidi.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı əbədiyyən yaşadılacaq. Bizlər yaşadırıq, olmuşların tarixinə, milli-mənəvi ruhun ayrılmazlığına ehtiram kimi bizdən sonra da yaşadılacaq!..

Toplaşanların sırasında Qarabağ döyüşlərindən tanıdığım Kərəmi görürəm, Səlimi, Sahibi, Səməndəri, ... görürəm. Murovda kəlmələşdiyimiz anları xatırlayırıq, şəhidləri xatırlayırıq, adını unutduğum əsgərin oxuduğu "Çırpınırdı Qara dəniz"i xatırlayırıq. Bu xatırlamalar da Cümhuriyyətimizə bağlıdı; müasirləşməyin, türkləşməyin, islamlaşmağın varisi olan Azərbaycanımızın ərazi bütövlüyü bərpa olunacaq!

- 2016-cı ilin aprelində döyüşlərə getmək istədik. Azərbaycan Ordusu veteranların köməyi olmadan da torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bizi döyüşlərə könlümüz çəkirdi. Ali Baş Komandanın döyüş əmrinə biz də hazırıq. Tədbiri Cümhuriyyətin 100 illiyinin keçirildiyi bu məkanda Böyük Qələbəmizin ildönümünə yığışacağımız inamıyla izləyirik, - baxışları əsgərlərin nizami düzülüşünə mehrləşmiş qazilər belə deyir...

Tədbir Ulu Öndərin, Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçilik siyasətinin tədbiridi. Tədbir böyük tarixi şəxsiyyət Heydər Əliyevin "Mən bu gün qürurla deyirəm ki, biz Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli və layiqli varisiyik...", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin demokratik ənənələri bu gün də yaşayır və müasir Azərbaycan onun hüquqi varisidir " kəlamlarının tədbiridi.

Xalq artisti Samir Cəfərovun, əməkdar artistlər Aybəniz Haşımovanın, Ramil Qasımovun, Cahangir Qurbanovun, "Göygöl" və H.Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs ansambllarının solistlərinin ifa etdiyi mahnılar 100 il nədi, 100 illərin o üzündə dövlətçilik naminə "qılınc çalan, atlını atdan salan" məfkurənin dilmancıdı elə bil. Dinləyirsən, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin necə qurulmasının, 1920-ci il aprelin 28-də ilhaq edilən dövlətin varisi olaraq 1991-ci il oktyabrın 18-də müstəqilliyin necə bərpa olunduğunun minbir sirrindən birinə vaqif olursan: "Haqqa düşmən olanı haqqa tapındıran muğamlarımızdan" (B.Vahabzadə) rişələnən musiqi mübarizlik ruhudu, döyüş ruhudu, qələbə ruhudu. Dövlətçiliyə söykənən bu ruh 2016-cı ilin aprelində tarix yazanlarımızın davamçılarını Ali Baş Komandanın sərkərdəliyiylə Böyük Qələbəyə aparacaq...

Aybəniz Haşımovanın hərbi səhra geyimli 7-8 yaşlı uşaqlarla birgə oxuduğu "Haydı, oğlum, haydı, gəl" mahnısı anaların (deməli, Cümhuriyyətin, Cümhuriyyətin timsalında Vətənin) istəyi kimi dinlənilir...

...Gəncə qiyamından sonra xalqın iradəsinin ifadəçisi olan el qəhrəmanları sovetləşməylə, Sovet rejimiylə barışmırdı. Məmmədqasım bəy dəstəsiylə dağlara çəkildi, Cümhuriyyətin bərpası üçün 1932-ci ilə kimi Sovet hökumətiylə vuruşdu; qaçaq el-obaya həyan oldu, qaçağı el-oba saxladı; istək azalmadı, güc tükənmədi, rejim gücləndi, rejimin tərəfdarları artdı. Məmmədqasım bəy Türkiyəyə keçdi...



Tədbirə Qaçaq Məmmədqasım bəy də gəlib; onun da gəlişi şərti gəlişdi. Gəncədən danışır, Cümhuriyyətdən danışır, beşaçılanını bayraq əvəzi göyə dikəldib. Və ... diz çöküb torpağı öpür; ruhun cana qayıdışıdı bu qayıdış...

Bugünkü möhtəşəm tədbirə Türkiyədən Qaçaq Məmmədqasımın nəvəsi Şuay Alpay da gəlib...

Tədbir iştirakçılarını Müdafiə nazirinin adından, şəxsən öz adından Cümhuriyyət bayramı münasibəti ilə təbrik edən Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev dəvəti məmnuniyyətlə qəbul edərək bugünkü tədbirə gələn Şuay Alpayı Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayır. Şuay Alpayın Türkiyə və Azərbaycan Silahlı Qüvvələri arasında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti adından "Hərbi əməkdaşlığa görə" medalı ilə təltif olunması haqqında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri oxunur. Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev medalı Şuay Alpaya təqdim edir.

Şuay Alpayın duyğulandığı aydınlığıyla hiss olunur:

- Can Azərbaycana salamlar gətirmişəm. Gəncədə olmağın bəxtiyarlığını yaşayıram. Cümhuriyyət mücahidi Qaçaq Məmmədqasımın nəvəsi olmağın bəxtiyarlığını yaşayıram. Cümhuriyyətin 100 illiyində olmağın bəxtiyarlığını yaşayıram. Türkiyə ilə Azərbaycan bütövün hissələridi. Bu hissələrin zərrəsi olmağın bəxtiyarlığını yaşayıram...

Yanaşı dalğalanan bayraqlar ürəkləri tellədirir; Naxçıvanda "Ümid körpüsü"ndə bayraqdəyişmə tədbirini xatırlayıram...

Qafqazdan Berlinəcən döyüş yolu keçmiş 98 yaşlı Tofiq Hüseynov yaşın hökmünə boyun əymir, rəqs edir. Bu, tədbirin yaratdığı ovqatdı.

- Şıxlinskinin əsgəri olan atam son nəfəsinə kimi Səməd bəy dedi, Ələğa dedi, bir də Cümhuriyyət dedi. "Səməd bəy sərdarımız..." şərqisi dilindən düşməzdi, - deyir Cümhuriyyətə sevgi, Müsəlman Korpusuna sevgi yaşada-yaşada yaşa dolmuş Tofiq baba...

...Park-kompleksin amfiteatrının divarları boyunca yanan məşəllər Cümhuriyyətin yaşarılığının simvoludu.

Şər qarışıb. "Zəfər tağı" işıq içindədi. Bu işıq Azərbaycan Xalq Cümhuriyyətinin işığıdı...

...Bu möhtəşəm tədbir bir inamın tədbiridi - Azərbaycan Xalq Cümhuriyyəti yaşadılacaq, yaşayacaq tarixidi, Azərbaycanın dövlətçilik tarixidi, müasirləşmə, türkləşmə, islamlaşma məfkurəsinin tarixidi. Bu tədbir həm də Azərbaycan Xalq Cümhuriyyətinin ikinci yüzilliyinin başlanğıc tədbiridi:

Ucalarda dalğalanan
Uca bayraq - Cümhuriyyət!
Yaşadırıq!
Yaşadarıq!
Yaşayacaq Cümhuriyyət!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilib



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Azərbaycan Ordusunun hissələrində, birlik və birləşmələrində, Əlahiddə Ümumqoşun Orduda da böyük ehtiramlarla qeyd edilib. Şəxsi heyətdə tariximizə, dövlətçiliyimizə sevgi aşılayan tədbirlər mahiyyəti etibarilə həm də mənəvi-psixoloji hazırlığın yüksəldilməsində mühüm əhəmiyyətə malikdir. Dövlətçilik tariximizin şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə bu sevgi dövlətçiliyə sədaqətin təsdiqidir.*

*Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi ehtiram sükutu ilə yad edilib...*

Mayın 25-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "İnnovativ Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü, Müdafiə və Təhsil nazirliklərinin dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin əməkdaşları, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabit və kursantları, Bakı şəhərinin 7, 60 və 229 nömrəli məktəblərinin müəllim və şagirdləri, ictimaiyyət nümayəndələri iştirak etdilər.

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti qurucularının və ailələrinin başlarına gətirilən müsibətlərdən, məşəqqətli həyat yaşamalarından, lakin bu yoldan dönmədiklərindən, ömürlərinin sonuna kimi bayrağımıza sadiq qalmalarından danışdı.

Kursantlar və şagirdlər "Bayrağa sədaqət andı" içərək Azərbaycan Respublikasının bayrağını hər zaman uca tutacaqlarına, yüksəklərdə dalğalanması üçün mübarizə aparacaqlarına söz verdilər.

"İnnovativ Təşəbbüslər" İctimai Birliyinin sədri Əşrəf Əhmədov Azərbaycan Respublikasının Dövlət bayrağını mayor Natiq Rəhimova təqdim etdi.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin dövlət qulluqçusu Zümrüd Səmədova Xalq Cümhuriyyətinin 23 ay yaşamasına baxmayaraq, çox mühüm qərarlar qəbul etməsindən, xüsusilə ordu quruculuğu sahəsində inkişafa nail olmaq məqsədilə mühüm layihələr həyata keçirməsindən, ölkənin ərazi bütövlüyünü çox yüksək səviyyədə təmin etməsindən söz açdı.

Ehtiyatda olan kapitan Gülarə Mustafayeva, Almaz Zeynalova və başqaları 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsinin əhəmiyyətini vurğuladılar, siyasi əqidəsindən və statusundan asılı olmayaraq bütün insanların ürəyincə olan bir addım olmasından danışdılar.

Tədbir kursant və şagirdlərin ifasında musiqi proqramıyla başa çatdı.

* * *

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi təntənəli surətdə qeyd olundu.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifələrini icra edən polkovnik Qadir Vəlişov dedi:

- Hamımız çox əlamətdar bir gün yaşayırıq. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il keçir. Bildiyiniz kimi, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Yenicə doğulan Azərbaycan Xalq Cümhuriyyəti çətin tarixi vəzifəsini qısa vaxt kəsiyində şərəflə yerinə yetirdi. Demokratik prinsiplərə, milli mənafeyə söykənən dövlət orqanları quruldu. 26 iyun 1918-ci ildə ordunun yaradılması haqqında qərar qəbul edildi, quruculuq işlərinə başlanıldı. Azərbaycan hökumətinin rəhbərliyi altında Cümhuriyyət ordusu bütünlüklə xalqın maraqlarına xidmətə yönəldildi, milli dəyərlərimiz ordu daxilində bərqərar edildi. Ordu ilə xalq birliyinin yaradılması ordu quruculuğu işini sürətləndirdi. Cəmi 23 ay yaşamış Cümhuriyyət xalqımız üçün böyük tarixi işlər görmüşdür. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yaradılmış ilk demokratik respublika idi. Təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də bolşeviklər tərəfindən işğal edildi. Aparılan böyük quruculuq işləri yarımçıq qaldı. Cümhuriyyət liderlərinin təqib olunmasına və həbsinə başlanıldı. Onların bəziləri öldürüldü, bəziləri isə xarici ölkələrə üz tutmalı oldular. XX əsrin sonunda Sovet hökuməti çökdükdən sonra xalqımız ikinci dəfə öz müstəqilliyini qazandı. Ümummilli liderimiz Heydər Əliyev xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra müstəqilliyimiz daha da möhkəmləndi. Ulu Öndər dövlətçiliyimizin daha da möhkəmlənməsi üçün uğurlu islahatlar həyata keçirdi. Məhz aparılan belə islahatların nəticəsidir ki, bu gün müstəqil Azərbaycan möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı ilə dünyada daha da böyük şöhrət qazanmaqdadır. Ordu quruculuğu istiqamətində aparılan işlər müsbət nəticələr verməkdədir. Azərbaycan Ordusu günü-gündən güclənir və qüdrətini artırır. 2016-cı ilin aprel döyüşləri ordumuzun artan gücünü və qüdrətini bir daha göstərdi.



Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən video-çarx nümayiş etdirildi. Yüz il əvvəl baş vermiş hadisələr bir anlıq gözlərimiz önündə canlandı. Kursantlar hazırladıqları ədəbi-bədii kompazisiyanı təqdim etdilər. Onlar qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədi, hərbi mahnılar ifa etdilər. Kursantların çıxışları tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılandı.

Tədbirə yekun vuran C.Naxçıvanski adına Hərbi Lisey rəisinin tərbiyəvi işlər üzrə müavini polkovnik-leytenant Kamran Nəsibov belə dəyərli ədəbi-bədii kompazisiya nümayiş etdirdiyinə görə kursantlara və təşkilatçı Naibə Şəmşiyevaya minnətdarlığını bildirdi və çıxışını bu sözlərlə bitirdi: "Əziz kursantlar, inanıram ki, siz ordumuzun gələcək zabitləri layiqincə xidmət edəcək, dövlətimizin, dövlətçiliyimizin mənafeyini şərəflə qoruyacaqsınız. Azərbaycan Xalq Cümhuriyyətinin quruculuq ənənələrini layiqincə davam etdirəcək, üçrəngli bayrağımızı daim zirvələrdə dalğalandıracaqsınız.”

* * *

Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və ordu quruculuğu" adlı Respublika Elmi Konfransı keçirildi.

Konfransda Müdafiə Nazirliyinin, Silahlı Qüvvələrin Hərbi Akademiyasının, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin, hərbi hissələrin və digər təşkilatların nümayəndələri iştirak etdilər.



Konfransdan əvvəl "Azərbaycan Xalq Cümhuriyyəti"nin və "Azərbaycan Xalq Cümhuriyyəti ordusu"nun 100 illiyinə həsr olunmuş sərginin nümayişi oldu.

Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə Cümhuriyyətin yaranma və inkişaf tarixinə dair məlumat verdi. "1918-ci il mayın 28-də Müsəlman Milli Şurasının ilk iclasında Azərbaycan Xalq Cümhuriyyəti elan olunması barədə qərar qəbul edilib. Yenicə yaranmış dövlətin qarşısında duran başlıca vəzifələrdən biri ölkənin təhlükəsizliyinin təmin edilməsi idi ki, bu məqsədlə güclü və nizami Milli Ordunun yaradılması zərurətə çevrilmişdi.1918-ci ilin iyununda ölkədə hərbi vəziyyət elan olundu və Müsəlman Korpusunun adı dəyişdirilərək Əlahiddə Azərbaycan Korpusu adlandırıldı. Kənar qüvvələrin təsiri nəticəsində əsası təzə qoyulmuş Cümhuriyyətimiz cəmi 23 ay ömür sürsə də, bu gün hamımız müstəqil Azərbaycan Respublikasının vətəndaşı olaraq bu günü böyük fəxr hissi ilə qeyd edirik."

Tarix üzrə fəlsəfə doktorları Kamran İsmayılov, Vaqif Abışov, Hacı Həsənov, Zəfər Kərimov, tarix elmləri doktoru Nurulla Əliyev konfransda çıxış etdilər və qonaqlara Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti ilə bağlı geniş məlumat verdilər.

Tarixi günə həsr olunmuş qısametrajlı sənədli filmdən sonra konfrans başa çatdı.

* * *

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə mayın 28-də Bakının müxtəlif yerlərində hərbi orkestrlərin çıxışları olub.

Hərbi orkestrlərin çıxışları Dənizkənarı Milli Parkda iki istiqamətdə - Azadlıq meydanının qarşısında və Azneft meydanı qarşısındakı dövlət bayrağının önündə, Fəvvarələr meydanında, Əhmədli qəsəbəsində Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev parkında, Zərifə Əliyeva parkında və Zabitlər parkında təşkil edilib.

**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev adına Hərbi Liseydə qaliblər mükafatlandırılıb



Respublika fənn olimpiadalarının qalibi olan Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına, Naxçıvan qarnizonu tam orta məktəbinin şagirdlərinə və qaliblərin müəllimlərinə Əlahiddə Ümumqoşun Ordu komandanı tərəfindən mükafatlar təqdim edilib.

Mükafatlandırma mərasiminə hazırlıqla bağlı məruzə edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Heydər Əliyev adına Hərbi Liseydə təşkil olunan tədbirdə liseyin rəisi general-mayor Elman Orucov və Naxçıvan qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov çıxış edərək muxtar respublikamızda təhsilin inkişafı istiqamətində aparılan məqsədyönlü tədbirlərdən hər iki təhsil ocağına xüsusi pay düşdüyünü bildiriblər. Qeyd edilib ki, diqqət və qayğının nəticəsində kursant və şagirdlərimiz fənn olimpiadalarında sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirərək yüksək nəticələr qazanırlar.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ötən əsrin 70-ci illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən təhsil strategiyası Azərbaycanda ixtisaslı milli kadrların hazırlanmasının əsasını qoyub, iqtisadi potensial inkişaf etdirilib, sosial-mədəni, elm-təhsil və milli-mənəvi dəyərlər dirçəldilib, bu yolla gələcək müstəqillik üçün etibarlı zəmin yaradılıb. Dahi şəxsiyyət ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da təhsilin inkişafını dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirib, bu sahədə kompleks islahatlar həyata keçirilib. Ölkə başçısı İlham Əliyev tərəfindən də təhsil sistemində yenidənqurmanın həyata keçirilməsi, həm təhsil alanlar, həm də təhsil verənlər üçün əlverişli şəraitin yaradılması, təhsilin inkişafı istiqamətində dövlət proqramları və sərəncamların imzalanması təhsilimizin daha da inkişaf etdirilməsinə xidmət göstərir.

Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında da təhsil özünün tərəqqi dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təhsilə göstərdiyi diqqət və qayğı nəticəsində, yeni texnologiyalara tədris prosesində geniş yer verilməsi, beynəlxalq təcrübədən yaradıcı şəkildə istifadə olunması təhsil sahəsində uğurların qazanılmasına şərait yaradıb. Bu baxımdan Heydər Əliyev adına Hərbi Liseydə və Naxçıvan qarnizonu tam orta məktəbində müasir maddi bazanın yaradılması, yeni metod və üsulların təlim-tərbiyə prosesində tətbiq olunması nəticəsində ali məktəblərə qəbul səviyyəsi ildən-ilə yüksəlməkdədir. Məhz bunun nəticəsində respublika fənn olimpiadalarında yüksək nailiyyətlər qazanılıb. Belə ki, bu olimpiadalarda kursant və şagirdlər 1-i qızıl, 1-i gümüş, 4-ü bürünc olmaqla, ümumilikdə, 6 medal qazanıblar. Bu nailiyyətlərin 28 May - Respublika Günü, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü ərəfəsində qazanılması bizim sevincimizi daha da artırır.



Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun sözləri ilə yekunlaşdırıb: "Bu gün dünyada o ölkələr inkişaf edərək irəli gedirlər ki, orada təhsilə daha çox sərmayə qoyulur. Çünki təhsilə qoyulan sərmayə xalqların və ölkələrin gələcəyinə qoyulan sərmayədir. Vətənpərvər gənclik isə o gələcəyin ən etibarlı təminatçısıdır. Əgər ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə yetişən gənclik müstəqil Azərbaycanın bugünkü inkişafını təmin etmişdirsə, bu gün yetişən gənclik də bu inkişafın gələcəkdə davamının təminatçıları olacaqdır".

Çıxışların ardından olimpiada qalibləri olan Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına, Naxçıvan qarnizonu tam orta məktəbinin şagirdlərinə və qaliblərin müəllimlərinə fəxri fərman, təşəkkürnamə və pul mükafatları təqdim edilib.

Tədbirin sonunda Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyətinin təntənəli keçidi olub.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**fotolar**
**əsgər**
**Rauf ƏLƏSGƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 may 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 93 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Şirvanlı, Kəngərli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***29 may 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 84 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan və İcevan rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Kəngərli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Mayın 29-da səhər saatlarında Ermənistan silahlı qüvvələri bölmələri Füzuli rayonunun işğal olunmuş Qorqan kəndi istiqamətində yerləşən mövqelərindən taxıl sahəsində kənd təsərrüfatı işləri yerinə yetirən kombaynı atıcı silahlardan atəşə tutub.

Xəsarət alan yoxdur. Kənd təsərrüfatı texnikasına ziyan dəyib.

*Nümunəvi xidmət*

# Bayrağımız daim zirvələrdə dalğalansın



Bu yaxınlarda tank biatlonunda "Ən yaxşı tank heyəti" adı uğrunda yarışlar keçirildi. Bütün heyət bilik və bacarıqlarını səfərbər edərək, qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəldi. Təbii ki, tankçı olmaq çətin peşədi. Çünki onu dağlıq ərazidə idarə etmək, hərəkətdə hədəfləri müəyyənləşdirmək və sıradan çıxarmaq, tank əleyhinə xəndəyi, minalı və ya minasız maneələri dəf etmək bacarıq tələb edir. Verilən tapşırıqları icra etdikcə, tutduğun peşə sənə bir o qədər şərəfli gəlir. Yarışların sonunda "Ən yaxşı tank heyət"i seçildi.

Yarışlardan sonra ən yaxşı tank komandirlərindən biri - gizir Amid Əliyevlə tanış olmaq imkanı qazandım. Öyrəndim ki, o, xalqımıza iki qələbə sevinci yaşadanlar sırasındadır. Həm aprel döyüşlərinin, həm də 2017-ci il Rusiya Federasiyasında keçirilən "Tank biatlonu" yarışlarının iştirakçısı olan gizir Amid Əliyev həmin günlərin yaddaşından heç vaxt silinməyəcəyini bildirdi: "Ağır döyüşlər getməsinə baxmayaraq, ordumuz fəallıq göstərərək düşməni geri çəkilməyə məcbur etdi. Ermənilər ata-baba torpaqlarımızda yuva qurmağa çalışdıqları yerləri atıb qaçdılar. Onları bu vəziyyətdə gördükcə bir daha əmin oldum ki, düşmənin silahlı qüvvələri döyüş meydanında Azərbaycan Ordusu ilə qarşı-qarşıya gəlmək, mübarizə aparmaq gücündə deyil. O anda düşündüm ki, əgər bizim bütün şəxsi heyətimiz aprel döyüşlərinə səfərbər olunsaydı, düşməni hansı aqibət gözləyə bilərdi? Sualıma cavabı qısa vaxtda Ali Baş Komandanımızın başçılığı altında ordumuz Xankəndinə, Şuşaya, Laçına və digər işğal altında olan torpaqlarımıza ayaq basanda tapacağıq."

Gizir Amid Əliyevin bu sözləri məni çox qürurlandırdı. Fəxr etdim ki, ordumuz bu cür igid, yenilməz Vətən oğullarının çiynindədir.

Gizir Rusiya Federasiyasında keçirilən biatlon yarışlarına toxunaraq bildirdi ki, güclü ordunun tərkibində beynəlxalq oyunlarda iştirak etməyi ilə qürur duyur: "Biz burada təlimlərdə, dərslərdə atış icra edir, maneələri dəf edirik. Hər işimizə həmişə məsuliyyətlə yanaşmışıq. Başqa bir dövlətdə öz ölkəni təmsil etmək ikiqat məsuliyyət tələb edir. Düzdür, yarışlara kifayət qədər güclü hazırlaşmışdıq. Ancaq inan düşünürdük ki, 19 ölkənin, ən əsas da bədnam qonşularımızın da iştirak etdiyi bu yarışlarda qələbə qazanmalıyıq. Belə də oldu. Biz yüksək nəticələr əldə edərək lazımi pilləyə yiyələndik. Bu qələbənin qazanılmasında bütün heyətin rolu böyük olub. Onlarla bu sevinci yaşamaq başqa bir hissdir. Bu il də keçirilən beynəlxalq yarışlarda iştirak edəcəyik və ölkəmizin bayrağını yüksəklərə qaldırmaq uğrunda mübarizə aparacağıq. Bizim bayrağımız qəhrəman oğullarımızın qanı bahasına müstəqil Azərbaycan Respublikasının səmasında dalğalanır. Ona görə də bayrağımız ən yüksək zirvələrdə dalğalanır və dalğalanmalıdır."

Nə qədər ki, belə Vətən oğullarımız var, o zaman xalqımız da, dövlətimiz də, bayrağımız da var olacaq. Üçrəngli bayrağımız torpaqlarımız azad olduğu gün döyüşçülərimizin başı üzərində dalğalanacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Ordu idmançılarının qələbələrinin davamlı olacağına inanırıq

*Bu günlərdə Moskvada hərbçilər arasında keçirilən güləş üzrə 33-cü dünya çempionatında idmançılarımız uğurlu çıxış edərək Vətənə 11 medalla qayıtdılar. Bu ölkəmizdə güclü güləş məktəbinin olduğunun təsdiqidir. İstedadları yetişdirən, qayğısına qalan, püxtələşdirib peşəkar güləşçi olması üçün çalışan böyük məşqçi əməyi var. Müsahiblərimiz Mərkəzi Ordu İdman Klubunun (MOİK) güləş məşqçiləri beynəlxalq dərəcəli idman ustası, Əməkdar məşqçi, hərbçilər arasında keçirilən XXX dünya çempionatının qalibi mayor Nazim Əlicanov və beynəlxalq dərəcəli idman ustası, hərbçilər arasında keçirilən Avropa və dünya birinciliklərinin dördqat qalibi, hərbçilər arasında II Olimpiya Oyunlarının gümüş mükafatçısı mayor Taleh İsrafilovla söhbətimizə başladıq...*






- Hərbçilər arasında keçirilən dünya çempionatını necə qiymətləndirirsiz? - sualına cavab olaraq mayor Nazim Əlicanov bildirdi ki, hərbçilər arasında keçirilən bu yarış dünya səviyyəli güləş yarışları ilə bərabər səviyyədədir. - Nəzərə almaq lazımdır ki, turnirin adı hərbçilər arasında dünya çempionatı olsa da, burada sırf hərbçilər deyil, müxtəlif ölkələrin hərbi idman klublarını təmsil edən dünya, Avropa və digər beynəlxalq miqyaslı yarışların qalibləri də iştirak edirdilər. Rusiya Federasiyası yarışları yüksək səviyyədə təşkil etmişdi. Ümumilikdə yarışlara 22 ölkədən 350-dən çox idmançı qatılmışdı. Yarışda iştirakçıların hamısı qələbə qazanmaq üçün bütün gücünü, istedadını ortaya qoymuşdular. Hansısa rəqibin güclü və ya zəif olduğunu demək olmazdı.

- 11 medal qazanmaq, komanda hesabında 4-cü yerə layiq görülmək, həqiqətən, uğurlu nəticədir. Hiss olunur ki, komandamız bu turnirə çox ciddi şəkildə hazırlaşıb...

- Təlim-məşqlərin yüksək səviyyədə keçirilməsinə şərait yaratdıqlarına görə Müdafiə Nazirliyinin və MOİK-in rəhbərliyinə, Azərbaycan Güləş Federasiyasına bütün kollektiv adından dərin təşəkkürümü bildirirəm. İdmançılarımızın turnirə hazırlaşmaları üçün hər gün imkan yaradılmışdı. Hər gün hazırlıqlarımız çox ciddi şəkildə aparılırdı. Gündə iki dəfə, bəzən üç dəfə məşq keçirdik. İdmançılarımız da təlim-məşqlərə böyük həvəs və ruh yüksəkliyi ilə qatılırdılar. Komandamızda ümumi əhval-ruhiyyə yüksək səviyyədə idi. Güləşçilərimiz qarşısında qoyulan əsas məqsəd isə dünya çempionatından Vətənə qızıl medallarla qayıtmaq idi. Bütün iştirakçıların etimadı doğruldub medal aktivimizi zənginləşdirəcəklərinə inanırdıq. MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev də yarışqabağı daim idmançılarımızın yanında olmaqla onlara böyük stimul verirdi. Yarışlara gəlincə, bütün idmançılarımız daha çox bayrağımızın dalğalanması, himnimizin səslənməsi üçün döşəkdə əzmlə mübarizə aparırdılar. 2 qızıl, 3 gümüş, 6 bürünc medal komandamızın çıxışının müsbət olduğunun sübutudur. Biz bilirdik ki, orada bizim düşmənlərimiz - erməni komandası da iştirak edir. Hərbçi kimi onlarla güləşmək bizdən birə-beş diqqətli olmağı tələb edirdi. Digər silahdaşlarımız necə səngərlərimizdə düşmənlə ayıq-sayıq mübarizə aparırlar, eləcə də biz döşək üzərində düşməni məğlub etməli idik. Bildiyiniz kimi, idmançılarımız qarşılaşdıqları erməni rəqiblərinin hamısını məğlub etdilər. Qadın güləşçilərimizin də çıxışını xüsusilə qeyd etmək istəyirəm. 3 qadın idmançı ilə təmsil olunduğumuz yarışda komandamız 1 qızıl, 1 bürünc medal qazandı. Uğurlarımız təsadüfi deyil və bu həqiqətən yaxşı nəticədir, - deyə mayor Taleh İsrafilov bildirdi.

- Güləşçilərimizin ümumi çıxışını qənaətbəxş hesab etmək olar?

- İlk olaraq mayor İsrafilovun qeyd etdiyi kimi, qadın güləşçilərimizin uğurlu çıxışları haqqında danışmaq istəyirəm, - deyə mayor Əlicanov bildirdi. "Qadın güləşçilərimiz bu yarışlarda ikinci dəfədir iştirak edirlər. Yarışları birinci yerdə başa vuran, 65 kiloqram çəki dərəcəsində ölkəmizi təmsil edən Ceyla Nağızadənin keçirdiyi görüşlər barədə məlumat verim. Xanım idmançımız ardıcıl olaraq Monqolustan və Qazaxıstan idmançılarına qalib gələrək hərbçilər arasında dünya çempionu adını qazandı. Qələbə sayəsində o, 33-cü dünya çempionatında Azərbaycan komandasının aktivinə ilk qızıl medalı yazdırdı. Qadın güləşində digər medalçımız isə 50 kiloqram çəki dərəcəsində mübarizə aparan Sona Tumarxanovadır. Təəssüf ki, o ilk görüşdə Qazaxıstan təmsilçisinə məğlub oldu. Lakin təsəlliverici görüşdə o etimadı doğrultdu və Monqolustan təmsilçisini məğlub edərək turniri üçüncü yerdə başa vurdu, komandamızın hesabına ilk medalı əlavə etdi. 53 kiloqramda qurşaq tutan xanım güləşçimiz Tatyana Varansova medal qazana bilmədi.

Sərbəst güləşçilərimizin çıxışına gəlincə bildirim ki, 9 idmançımız güləşin bu növündə öz güclərini sınadılar. Onlardan dördü ölkəmizə medalla qayıtdı. Medalların biri gümüş, üçü isə bürüncdür. Əfsuslar olsun ki, sərbəst güləşçilərimizdən qızıl medal qazanan olmadı. Sərbəst güləş üzrə döşək üzərinə ilk olaraq 57 kiloqram çəki dərəcəsində mübarizə aparan Əfqan



Xaşalov çıxdı. Əfqan bu yarışı keçən il üçüncü yerdə başa vurmuşdu. Bu il onun qızıl medal qazanmasına ümid edirdik. Amma ilk görüşdəcə Şimali Koreya təmsilçisinə gözlənilməz məğlubiyyəti bu istəyin üstündən xətt çəkdi və o yarışları beşinci yerdə başa vurdu. Müvafiq olaraq 61, 70, 79, 92 kiloqram çəki dərəcələrində mübarizə aparan güləşçilərimiz Pərviz İbrahimov, Pənah İlyaslı, Orxan Abbasov, Asxab Həmzətov ilk görüşdə məğlub olaraq turniri medalsız başa vurdular. 65, 74, 97 kiloqram çəki dərəcələrində qüvvələrini sınayan Ağahüseyn Mustafayev, Coşqun Əzimov və Roman Bəkirov üçüncü oldular. Məşqçi kimi məni ikiqat qalib Ağahüseyn Mustafayevin görüşü həyacanlandırdı. Çünki qızıl medalı məhz ondan gözləyirdik. Lakin bu idmandır - üstünlüyü əldən verməyə bir neçə saniyə də bəs edir. Gümüş medalçımız 86 kiloqram çəki dərəcəsində mübarizə aparan Kənan Əliyev də favoritlərimiz siyahısındaydı. Qızıl medalın bir addımlığında olan cəngavərimiz hakimlərin qərəzli mövqeyi nəticəsində rus idmançısına məğlub olaraq ikinci oldu. İnanırıq ki, gələcək yarışlarda qızıl medallarımızın sayı çox olar.

Yunan-Roma güləşi üzrə komandamızın məşqçisi mayor Taleh İsrafilov bildirdi ki, bu turnir yunan-Roma güləşində qüvvələrini sınayan idmançılarımız üçün uğurlu keçdi. "9 təmsilçimizdən 5-i Vətənə medalla qayıtdı. 1 qızıl, 2 gümüş, 2 bürünc medalla güləşçilərimiz 22 komanda arasında üçüncü yerə çıxdılar. Çempionatın kubokuna da layiq görüldük. Bu tip turnirlərdə əsas məqsədlərimizdən biri də, rəqib olan erməni təmsilçilərini məğlub etməkdir. Yarışda bütün fikrimi və diqqətimi erməni rəqiblərlə mübarizəyə cəmləmişdim. 60 və 72 kiloqramda mübarizə aparan Murad Məmmədovla Ülvi Qənizadə bu baxımdan bizləri sevindirdilər. Hər iki güləşçimiz rəqib idmançıya göz açmağa imkan vermədilər. Təəssüf ki, sırf hakimlərin qeyri-obyektivliyi ucbatından hər iki təmsilçimiz yalnız final görüşündə uduzaraq qızıl medallarına qovuşa bilmədilər və fəxri kürsünün ikinci pilləsinə yüksəldilər. 82 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Rafiq Hüseynov İsveçrə təmsilçisini məğlub etdikdən sonra belarus güləşçiyə də qalib gələrək onu yarışlardan kənarlaşdırdı. Yarımfinal görüşündə R.Hüseynov Rusiya təmsilçisinə məğlub olaraq yarışlarda mübarizəni üçüncü yer uğrunda davam etdirdi və Almaniya təmsilçisinə qalib gələrək üçüncü oldu. 87 kiloqram çəki dərəcəsində güləşçimiz İslam Abbasov əvvəlcə Braziliya, sonra isə Çin təmsilçisinə qalib gələrək yarımfinala yüksəldi. Bu mərhələdə rusiyalı rəqibinə məğlub olaraq mübarizəni üçüncü yer uğrunda davam etdirdi. Bu idmançımız da Almaniya təmsilçisinə qalib gələrək 3-cü oldu. Digər təmsilçilərimiz medal qazana bilmədi. 77 kiloqram çəki dərəcəsində mübarizə aparan MOİK-in nümayəndəsi Həsən Əliyev isə macar, iranlı və Finlandiya güləşçiləri üzərində inamlı qələbə qazanaraq finala çıxdı. Burada o güclü rus idmançısını məğlub edərək yarışları birinci yerdə başa vurdu, qızıl medala layiq görüldü.

Məşqçilərimiz sonda vurğuladılar ki, qarşıda keçirilən turnirlərdə də bu uğurlarımız davamlı olacaq, idmançılarımız ölkəmizi layiqli səviyyədə təmsil edəcəklər.

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 368
Nüsxə 3525